# Şərəfli nəslin görkəmli nümayəndəsi

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, fəlsəfə elmləri doktoru, professor Fuad Qasımzadə ölkəmizdə elmin və təhsilin inkişafında böyük xidmətləri olan şərəfli bir nəslin görkəmli nümayəndəsidir. O, Azərbaycan ədəbiyyatşünaslığının və ictimai fikrinin adlı-sanlı təmsilçisi, akademik Feyzulla Qasımzadənin ailəsində yetişib formalaşmışdır. Akademik Feyzulla Qasımzadə Azərbaycan ədəbiyyatşünaslıq elminə XIX əsr Azərbaycan ədəbiyyatı kimi çətin və mürəkkəb epoxasının tədqiqinə bütöv bir ömür həsr etmiş məşhur ədəbiyyat tarixçisi olmuşdur. Azərbaycanın XIX əsrdə yaşayıb-yaratmış tanınmış yazıçı və şairlərinin həyatı və yaradıcılığına həsr olunmuş elmi-tədqiqat əsərlərinə, həmin sənətkarların ədəbi fəaliyyətlərinin öyrənilməsinə geniş yer ayrılmaqla yanaşı, onların ictimai baxışlarının təqdiminə də müəyyən səviyyədə diqqət yetirilmişdir. Lakin akademik Feyzulla Qasımzadə ədəbiyyat tarixçisi olduğundan onun əsərlərində təbii ki, ədəbiyyatşünaslıq tərəfi ağırlıq təşkil etmiş, ictimai baxışların tədqiqi ikinci planda dayanmışdır. Fikrimizcə, Fuad Qasımzadə bir elm adamı olaraq ədəbiyyatşünas atanın Azərbaycan ədəbiyyatının tədqiqi prosesində həm də söz açmalı olduğu ictimai fikrin tədqiqi ilə bağlı məsələləri ön mövqeyə çəkməklə böyük elmə gəlmiş, həm bu sahədə mövcud olan boşluğu aradan qaldırmaqla yeni elmi istiqamət yaratmış, həm də ədəbiyyatşünaslıq tədqiqatlarında sadəcə başlanğıc səviyyəsində nəzərə çarpan bir problemi fəlsəfi cəhətdən tamamlamışdır.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialında ali təhsil alarkən mənim ilk dəfə şəxsən gördüyüm akademik, rütbəli alim, görkəmli elm xadimi Feyzulla Qasımzadə olmuşdu. Belə ki, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda keçirilən respublika səviyyəli tələbə elmi konfransında iştirak etdiyim günlərdə bu ali təhsil ocağında dissertasiya müdafiəsi ilə bağlı ixtisaslaşmış elmi şuranın iclası olduğunu eşidib, həmin mərasimdə iştirak edərkən iki görkəmli alimin - akademik Feyzulla Qasımzadənin və o zaman müxbir üzv olan Məmməd Cəfər Cəfərovun çıxışlarını dinləmişdim. Xatırlayıram ki, mərhum alimimiz Yolçu Piriyevin Məmməd Cəfər Cəfərovun elmi rəhbərliyi ilə hazırlanmış "XIX əsr Azərbaycan ədəbiyyatında poema" adlı namizədlik dissertasiyasının yığıncağında akademik Feyzulla Qasımzadənin rəsmi opponent kimi çıxışında həmin dövr ədəbiyyatımızın poemalar müəllifi olan bir neçə nəfərdən adı və əsərləri çox az məlum olan sənət adamlarından da bəhs edilmişdi. Feyzulla müəllimin tunc heykələ oxşayan görkəmi də irəli sürdüyü ciddi elmi tezisləri tamamlamışdı.

Akademik Fuad Qasımzadəni isə uzun illər əsərləri vasitəsilə tanımışdım. Xüsusən, böyük Azərbaycan şairi, Azərbaycan lirik şerinin atası Məhəmməd Füzulinin yaradıcılığına həsr olunmuş "Qəm karvanı, yaxud zülmətdə nur" adlı monoqrafiyası Azərbaycan füzulişünaslığının möhtəşəm elmi adibəsi kimi diqqətimi cəlb etmişdi. Fuad müəllimin özünü isə şəxsən XXI əsrin əvvəllərindən tanımışam. Azərbaycan Milli Elmlər Akademiyasının tərkibinə seçildikdən sonra onunla müxtəlif yığıncaqlarda, hesabatlarda, seçkilərdəki görüşlərimdə müşahidə etdiyim nurlu siması, incə yumoru, yüksək elmi məntiqi həmişəlik yaddaşımda qalmışdır. Çöhrəsindəki təbəssüm dolu aydın və işıqlı simanı xarakterindəki müdriklikdən və ürək genişliyindən doğan incə və zəngin yumor hissi geniş dünyagörüşü, şəxsiyyətin bənzərsiz obrazını təqdim edə bilirdi. O, müdriklik səviyyəsinə ucalan görkəmli Azərbaycan filosofu idi. Geniş elmi dünyagörüşü ilə xeyirxahlığı, hazırcavablığı, nikbinliyi, qəlbinin genişliyi Fuad Qasımzadə müdrikliyinin ana xəttini səciyyələndirir. O, fəlsəfə ilə yanaşı, etika, estetika, ədəbiyyatşünaslıq və sair kimi sahələrdə də yüsək elmi söz demək səlahiyyəti qazanmış mütəfəkkir alim idi. Təsadüfi deyildir ki, akademik Fuad Qasımzadə fəlsəfə elmləri ilə bir sırada ədəbiyyatşünaslıq və sənətşünaslıq sahələri üzrə olan elmi əsərlərin rəyçisi, elmi redaktoru, məsləhətçisi, rəsmi opponenti kimi də həmişə yüksək professionallıq nümayiş etdirmişdir. Geniş mənada Fuad müəllim Azərbaycanda ictimai və humanitar elmlərinin böyük tədqiqatçısı və görkəmli yaradıcılarından biri idi. Onun dəyərli elmi əsərləri alimlərin yeni nəsillərinin yetişib formalaşmasına işıq salır.

**İsa HƏBİBBƏYLİ**
*millət vəkili, akademik*